# XII Qəbələ Beynəlxalq Musiqi Festivalında bir ilk

**Hər il səbirsizliklə gözlədiyimiz Qəbələ Musiqi Festivalı bu il rəşadətli ordumuzun qələbəsindən sonra böyük ruh yüksəkliyi ilə sənətsevərlərə əsl bayram sevincini yaşatdı.**



Musiqi festivalının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə həsr olunması da musiqi bayramını əlamətdar hadisəyə çevirdi. Belə ki, 31 iyulda başlayan festivalda Bakı Musiqi Akademiyasının müəllim və tələbələrinin, eləcə də digər musiqi xadimlərinin iştirakı ilə geniş konsert proqramları təşkil edilib. Festivalın ikinci günündə Xalq artistləri Yeganə Axundova, Murad Hüseynov, Əməkdar artistlər İlham Nəzərov, Rövşən Quliyev, qoboy ifaçısı Əziz Pənahın yüksək səviyyədə çıxışları festivalın ən yaddaqalan konsert proqramlarından biri olub.

XII Qəbələ Beynəlxalq Musiqi Festivalında respublikamızın ilk kontratenor səs tembrinə malik müğənnisi, Azərbaycan və dünyanın bir sıra opera teatrlarında onlarla obraz yaradan, dünyanın müxtəlif ölkələrində təşkil olunan nüfuzlu beynəlxalq vokal müsabiqələrin qalibi, Əməkdar artist İlham Nəzərovun da ilk dəfə olaraq kontratenor kimi çıxış etməsi dinləyicilərin böyük rəğbətinə səbəb olmaqla yanaşı, festival tarixində əlamətdar hadisəyə çevrilib.

İldən-ilə fərqli və maraqlı konsert proqramlarını təqdim edən Qəbələ Beynəlxalq Musiqi Festivalı bu il də gözəl ifalarla yaddaşlarda qalacaqdır.

***"Azərbaycan"***

Azərbaycan.- 2021.-5 avqust.- S.8.